




REYHAN
TOPÇUBAŞOVA
İZZƏT
SEYİDOVA
BƏDURƏ
ƏFQANLI

REYHAN
TOPÇUBAŞOVA
İZZƏT
SEYİDOVA
BƏDURƏ
ƏFQANLI



85·143 (5 Aze)
R 43



REYHAN TOPÇUBAŞOVA

1905 - 1970

rəngkarlıq qrafika teatr geyimi

İZZƏT SEYİDOVA

1910 - 1973

rəngkarlıq qrafika teatr geyimi

BƏDURƏ ƏFQANLI

1912 - 2002

rəngkarlıq qrafika teatr geyimi

2015-fond.

SƏRVƏT
Bakı, 2013

F. Koçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 78661

Layihənin rəhbəri **Çingiz Fərzəliyev**
Layihənin əlaqələndiricisi **Toğrul Əfəndiyev**
Mətnin müəllifi **Xədicə Əsədova**

Head of Project **Chingiz Farzaliyev**
Project Coordinator **Togrul Afandiyev**
Author of the Text: **Khadija Asadova**

Azərbaycan təsviri sənət ustalarına həsr olunmuş **"Sərvət"** albomlar silsiləsinin hazırlanmasında Azərbaycan Milli İncəsənət Muzeyinin əməkdaşları yaxından iştirak etmişlər.
Silsilədə Azərbaycan Milli İncəsənət Muzeyinin,
Müasir İncəsənət Muzeyinin,
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin,
Azərbaycan Dövlət Rəsm Qalereyasının,
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin,
Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondlarında saxlanılan əsərlərdən və arxiv materiallarından istifadə olunmuşdur.
Silsilədə həmçinin özəl qalereyalarda və şəxsi kolleksiyalarda qorunub saxlanılan sənət əsərləri də təqdim edilmişdir.

Staff of the Azerbaijan National Museum of Art participated in the preparation of the **"Servet"** series of albums dedicated to the masters of Azerbaijani art.

This album series features works of art and archive materials in the following museums:

The Azerbaijan National Museum of Art,
The Museum of Modern Art,
The Nizami Ganjavi Azerbaijan National Museum of Literature,
The Azerbaijan State Art Gallery,
The Azerbaijan State Museum of Musical Culture,
The Jafar Jabbarli Azerbaijan State Museum of Theatre
and private galleries and collections.

ISBN 978-9952-34-973-3
ISBN 978-9952-40-426-5

Fotolar Ələkbər Ağasiyev
Arxiv araşdırmaları Nailə Rəhimova
Dizayn və kompüter yığımı Könül Bayramzadə
İngilis dilinə tərcümə Elmar Paşayev, Əminə Məlikova

Photography Alakbar Aghasiyev
Archive Research Naila Rahimova
Design and Computer Setup Konul Bayramzade
Translation into English Elmar Pashayev, Amina Melikova

© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013
"Sharq-Qarb" (East-West) Publishing House, 2013

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur
Azərbaycan, AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.:(+99412) 374 83 43

Printed at "Sharq-Qarb" Publishing House
Address: 17, Ashiq Alasgar Str., Baku, AZ1123, Azerbaijan
Tel.:(+99412) 374 83 43
www.eastwest.az www.fb.com/eastwest.az

Mündəricat
Contents

Həyat və yaradıcılıq
Life and Creative Work
Qısa tərcümeyi-hal
Short Biography

8

Reyhan Topçubaşova
Reyhan Topchubashova

42

İzzət Seyidova
Izzat Seyidova

72

Bədurə Əfqanlı
Badura Afganli

Bu dünya səsiylə səsləşənindir,
Dövranla düz gəlsən, dövran sənindir

Topluda Azərbaycanın üç tanınmış, istedadlı qadın sənətkarından bəhs edilir – Reyhan xanım Topçubaşova, İzzət xanım Seyidova və Bədurə xanım Əfqanlı. Üç həmdövr, üç sələf, üç peşəkar, üç sənətkar, üç qadın. Onlar həmdövr olmaqla yanaşı, öz yaradıcılıqlarında fəaliyyət göstərdikləri sahə ilə də bir-birlərinə çox yaxın idilər.

Qarşılarında hər üçünün uzun bir yol vardı. Bu yolu birgə qət etmək yazılmışdı onlara. Önlərindəki abidəni birgə inşa etmək və bu yaradılan səltənətlə Azərbaycan incəsənətində birincilər sırasına daxil olmaq, birincilərin birincisi olaraq əbədiləşmək, ucalmaq qismәti vardı.

Əzəmətli səhnə, parlayan işıqlar altında əsərin qayəsinə uyğun bədii tərtibat, kütləvi səhnələrə verilən tərtibat və obraza uyğun, nəfis fərdi kostyumlar üçün hazırlanan eskizlərin hər biri böyük məsuliyyət, etnoqrafik baxımdan milli geyim ənənəsinə bələdlik kimi xüsusi biliklər tələb edirdi. Onlar öz işlərini bilən, yüksək təhsil almış ilk peşəkarlardır. Qədər özü bu sələflərin arasında öz fəaliyyətlərini ədalətlə paylaşdırmışdı.


Reyhan xanım Topçubaşova, İzzət xanım Seyidova və Bədurə xanım Əfqanlı Azərbaycan incəsənətinin inkişafına böyük töhfələr vermişlər. Teatr dekorasiyası, səhnə tərtibatı, tematik rəsmlər, kostyum eskizləri kimi incəsənətimizdə xüsusi yeni bədii cərəyanın yaranması və inkişafı onların adı ilə bağlıdır.

This world belongs to those who sound along with its calling,
If you come along with the times, then the times will belong to you

This article is dedicated to three famous and talented Azerbaijani artist women – Reyhan khanim Topchubashova, Izzat khanim Seyidova and Badura khanim Afganli. Three contemporaries, three foremost women, three professionals, three artists, three ladies. Being contemporaries they also were very close to each other within their creative work.

Each of them had a long road ahead. And they were destined to overcome this road together. They were fated to build the monument standing in front of them together and to enter the Azerbaijani art as foremost artists with this created realm, to become immortal and to raise high among the first of the first. Each of sketches prepared for the great stage, for the decorative appearance under glaring lights complying with the plot of the composition, design of crowd scenes and graceful individual costumes matching the character required big responsibility as well as awareness of national costume traditions from ethnographic point of view. They were the first professionals who got higher education and who knew how to do their jobs. Destiny itself fairly assigned the work between these foremost women.

Reyhan khanim Topchubashova, Izzat khanim Seyidova and Badura khanim Afganli made a great contribution in the development of Azerbaijani Art. Formation and development of new specific artistic direction in theatrical decoration, stage design, thematic sketches and costume sketches is related to their names.



REYHAN TOPÇUBAŞOVA



Reyhan xanım İbrahim qızı Topçubaşova 15 dekabr 1905-ci ildə Quba şəhərində dünyaya göz açıb. Hələ uşaq yaşlarından o musiqiyə və rəsmə xüsusi meyl göstərmişdi. İlk təhsilini Bakıdakı Hacı Zeynalabdin Tağıyevin açdığı qızlar məktəbində alıb. Musiqiyə olan sevgi 1923-cü ildə Reyhan xanımın Konservatoriyanın fortepiano şöbəsinə daxil olmasına səbəb olur. Musiqi təhsili ilə yanaşı Reyhan xanım pedaqoji faəliyyət də göstərirdi. Tez bir zamanda ailə qurması, sonra ilk övladı İbrahimin dünyaya gəlməsi Reyhan xanımın təhsilini davam etdirməsində çətinlik yaradır və o konservatoriyanı yarımçıq qoyaraq təhsildən uzaqlaşır. Daha sonra Elmira və Zemfira adlı əkizlərin dünyaya gəlişi Reyhan xanımı bütünlüklə ailəsinə bağlayır. Onun körpələrinə göstərdiyi qayğı, bir ana kimi bütün vaxtını onlara sərf etməsi nəticəsində Reyhan xanım öz sevdiyi peşəsinə sahib ola bilmir. Daxilən özünü bədbin hiss edən Reyhan tezliklə bu iztirablara son qoymaq məqsədilə professional rəssamların daima mühazirələrini dinləməyə başlayır, mühazirələrin mövzusuna uyğun rəng və tuşdan istifarə edərək rəsmlər çəkir. 25 yaşında olan Reyhan xanım Topçubaşova bu rənglərin

"Gəlin şərf ilə"
"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Veiled Bride"
Sketch to "Wedding"
Paper, watercolour, 1935



"Toy"
Kətan, yağlı boya, 1935
"Wedding"
Canvas, oil, 1935



"Toy" Fraqment
Kətan, yağlı boya, 1935
"Wedding" Fragment
Canvas, oil, 1935

Reyhan Topçubaşova anası ilə birlikdə

Reyhan Topchubashova with her mother

sehrinə düşür, sevdiyi sənətlə məşğul olacağına qərar verir. 1933-cü ildə o, yenidən imtahan verərək Əzim Əzimzadənin rəhbərlik etdiyi Rəssamlıq Texnikumunun 3-cü sinfinə daxil olur. 1935-ci ildə texnikumu başa vurur və artıq daha inamla irəliləməyə başlayır.

Reyhan xanım Əzim Əzimzadənin rəssamlıq üslubundan tam bəhrələnib. O, zəmanəsinin, yaşadığı dövrün bir çox gerçəkliklərini çəkdiyi əsərlərində əbədiləşdirib.

Reyhan Topçubaşovanın sulu boya və ya yağlı boya ilə çəkdiyi bütün rəsmlərində gerçəklik, realizm üslubu üstünlük qazanıb. Onun çəkdiyi əsərlərini janr etibarilə dörd qismə ayırmaq olar. Onlardan məişət səhnələri (tematik rəsmlər), portret, mənzərə və kostyum eskizlərini xüsusilə qeyd etmək lazımdır. 1935-ci ildə kətan üzərində yağlı boya ilə çəkilmiş "Toy" əsəri əslində Reyhan xanım Topçubaşovanın diplom işi olmuşdur, burada müəllifə müəlliminin təsiri özünü texniki üsulların icrasında daha çox biruzə verir. O bu əsərini ilk dəfə 1936-cı ildə təşkil



edilmiş sərgidə nümayiş etdirir. Hazırda "Toy" əsəri Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasında mühafizə edilir. Əsər orijinallığı, həyatiliyi, məişətimizi tərənnüm edən etnoqrafik dolğunluğu baxımından çok maraqlıdır. Reyhan xanım bu əsərində müəllimini heç də kortəbii təkrarlamır, o öz rəng duyumu, məişət səhnəsini qurmaq bacarığı baxımından fərdiliyi ilə seçilir. 1935-ci ildə R.Topçubaşova "Toy" əsərinə hazırlıq kimi kağız üzərində sulu boya ilə ayrı-ayrı eskizlər çəkir, bu rəssamın böyük tabloda istifadə edəcəyi personajların ayrıca təsvirinə həsr edilib. Milli ruh, ənənəyə bağlılıq, geyimlərin dürüst seçimi, jestlər, obrazların plastikası, rəng ahəngi bütün personajları dolğun təsvir edir. Rəqs edən qadınlar, qızlar, mərkəzdə oynayan başı, üzü bağlı gəlin, yerdə oturub dedi-qodu edən qohumların hamısı öz aləmindədir. Bu mühitdə yaşayan müti insanlar, dünyanın heç bir başqa durumundan xəbərdar deyillər. Onlar sevinirlər, rəqs edərək əylənirlər. Bu kasıb koma tək bir

"Toy" Fraqmentlər
Kətan, yağlı boya, 1935
"Wedding" Fragments
Canvas, oil, 1935




evin deyil, onlarca-yüzlərcə evin, o dövrkü ümumi cəmiyyətimizin əksidir.

Rəssamın 1935-ci ildə kətan üzərində yağlı boya ilə çəkdiyi növbəti "Köhnə Bakının küçəsi" tablosu süjet xətti ilə çox maraqlıdır. Bu əsərdə təqdim etdiyi süjetdə Reyhan xanım köhnə ticarət köşklərinin ümumi səciyyəsini yaradır, kəndli üçün diləkcə yazan mirzə, səbirlə yerə xurcununu qoyub öz kağızını gözləyən kəndli, ikinci planda aşıq-aşıq oynayan yeniyetmələr, hətta dükanlarda satılan məhsullar belə öz dəqiqliyi ilə həyatımızdan götürülmüş ani məqamlardır. Əsərin etnoqrafik baxımdan geyim tərzi, kolorit həlli köhnə Bakının məişətini tərənnüm edir. Reyhan xanım məişət səhnələrini bacarıqla yaradan rəssamdır. Bu tabloda inqilabdan əvvəlki Bakını təqdim edir.

Reyhan xanım əsərlərində qadın azadlığı mövzusuna da toxunmağa səy göstərmişdi. Onun Azərbaycan təsviri sənətində ilk olaraq, sosialist realizmi ruhunda yaratdığı "İlk təbliğatçı qadın Mina xala" əsərində iradəli qadın obrazını yaratmağa nail olmuşdur. "Azad olmuş Azərbaycan qadını xilaskarının portreti" əsərində rəssam sanki öz mənəvi avtoportretini yaratmışdır. Azərbaycanlı qız əlində fırça lövhə qarşısında işləyir. Bu illər Reyhan xanım yaşadığı zamanın tarixini də kətan üzərinə köçürürdü, "Əli Bayramov klubunun qadınları Kirova bayraq təqdim edərkən", "1920-ci ildə Bakı Sovetinin təntənəli yığıncağı", "Xanların qəbri üstə" rəsmləri tarixilik baxımından dəyərlidirlər.

Reyhan xanım eyni zamanda istedadlı potret ustası idi. Onun çox sevdiyi balet ustasına həsr etdiyi "Qəmər Almaszadənin portreti" (1938-1939) əsəri Azərbaycan Milli İncəsənət Muzeyində qorunur. Bu əsərin çox dəyərli olmasına səbəb Reyhan xanımın çoxşaxəli istedada malik olması ilə yanaşı, həmçinin onun Qəmər Almaszadə ilə orta məktəbdə bir yerdə oxuması və onların arasında olan tanışlıq münasibətinin dostluğa çevrilməsi idi. Reyhan xanım əsərdə bələd olduğu insanı, Azərbaycanın ilk balet ustasının daxili aləmini, xarakterini fırçayla işləmişdir. Rənglərin təşkil etdiyi kontrastlıq əsərə sabit bir görkəm verir. Portret isə öz aydınlığı və sadə quruluşu ilə yadda qalır.



Reyhan xanım Topçubaşovanın Azərbaycanın ölməz klassiklərindən Mirzə Ələkbər Sabir, Səməd Vurğuna həsr etdiyi portretlər də dəyərli əsərlərindən sayılırlar. Daxilindən gələn böyük rəğbət hissiylə yaradılmış Sabir obrazı əsərə lirik ruh, hərarət verir. Otağın pəncərəsindən içəri süzülən işıq şairin düşüncəli simasını işıqlandırır. Əlində tutduğu qələm, dizləri üzərində olan kağızlar şairin yaratmaq eşqindən söhbət açır. Bu əsər öz səmimiliyi, canlılığı ilə seçilir.

Mənzərə janrında özünü sınayan Reyhan Topçubaşovanın "Şahdağ", "Dəniz" (Mərdəkandan görünüş), "Qayıq", "Qız qalası ay işığında", "Bakı qışda", "Gecə vaxtı dəniz mənzərəsi", "Ay qürub çağında", "Dumanda gündoğan", "Dəniz kənarında çadır" əsərləri xüsusilə yadda qalandırlar. O, mənzərə janrında çəkilmiş silsilə əsərlərin müəllifidir. Bu əsərlərin hər biri əlvanlığı, doğma vətəninin duyğulu, tam dolğun şəkildə tərənnüm edilməsi ilə qiymətli sayıla bilərlər.

"Əyləşmiş qadın"
"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Woman Seated"
Sketch to "Wedding"
Paper, watercolour, 1935




Klassik ədəbiyyata, poeziyaya olan vurğunluğu Reyhan xanımın Nizami Gəncəvinin "Xəmsə"si mövzusunda bir sıra əsərlərinin yaradılması ilə nəticələnir. Bu əsərlər rəssama böyük uğur gətirir.

Reyhan Topçubaşova 1938-ci ildən başlayaraq özünü kostyum eskizlərinin yaradılmasında da sınaqdan keçirir. O, Azərbaycan incəsənətinin Moskva şəhərində nümayiş edilməsi məqsədilə keçirilən dekada ərəfəsində çıxış edəcək mahnı və rəqs ansamblının ifaçıları üçün milli geyim dəstini tərtib edir. Məhz bu eskizlər əsasında tikilən kostyumlar tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanır. Reyhan xanım, ümumiyyətlə, çoxlu sayda eskizlərin müəllifidir, o, teatr rəssamıdır. Bu gün onun yaratdığı eskizlər Azərbaycan Milli İncəsənət Muzeyində, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr muzeyində və bir sıra şəkil qalereyalarında qorunub saxlanılır.

Reyhan xanım Topçubaşova rəssamlıqla yanaşı böyük ictimai iş aparan, dinamik təşkilatçılıq qabiliyyətinə malik qurucu qadın idi. Reyhan xanım

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 78661





"Balerina Qəmər Almaszadənin portreti"
Kətan, yağlı boya, 1938-1939
"Portrait of Gamer Almaszade" Ballet Dancer
Canvas, oil, 1938-1939

istedadlı gəncləri yaradıcılıq işinə cəlb edirdi. O, Maral Rəhmanzadə və Miklaşevskaya ilə birgə Neft daşlarında olmuş, orada yaratdığı əsərləri sonradan 1938-ci ildə 8 Mart Qadınlar Günü münasibətilə ilk dəfə təşkil etdiyi qadın rəssamlarının əsərlərindən ibarət sərgidə nümayiş etdirmişdir.

Reyhan xanım Topçubaşova 1941-1945-ci illərdə öz yaradıcılıq və təşkilatçılıq qabiliyyətinə görə Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədr müavini seçilmişdir. 10 iyul 1943-cü il tarixində qadın rəssamlarından ilk olaraq Reyhan xanım Topçubaşovaya təsviri sənətin inkişafında göstərdiyi xidmətlərinə görə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.


Reyhan xanım yaradıcılığında müharibə mövzusuna da müraciət etmişdir. O, "Cərrah Topçubaşov döyüşçünün həyatını xilas edir" və s. bu qəbildən əsərlərin müəllifidir.







"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Wedding" Sketch
Paper, watercolour, 1935



"Qadın fiquru"
"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Female figure"
Sketch to "Wedding"
Paper, watercolour, 1935

Həyatının sonunda ağır xəstəliyə düçar olan Reyhan xanım Topçubaşova son dəfə mənəvi olaraq öz analıq borcunu yerinə yetirir. O, oğlu İbrahimin vaxtsız ölümündən xəbər tutduqdan sonra sevimli övladını haqq dünyasında tək qoymamaq, sanki əbədiyyətə qovuşacaq bu uzun yolda ona səfər yoldaşı olmağa tələsir. Oğlunun vəfatından düz 8 gün sonra, 5 mart 1970-ci il tarixində Azərbaycanın istedadlı qadın rəssamı Reyhan xanım Topçubaşova dünyasını dəyişir. Lakin bu sima, bu bacarıqlı xanım sənətkar qəlblərdə, bədii irsini əmanət etdiyi muzeylərdə və Azərbaycanın tanınmış rəssamlarından M.Abdullayevin və M.Əfəndiyevin fırçaya aldıqları tablolarda əbədi yaşayacaqdır.

Xədicə Əsədova, Bakı, 2013







"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Wedding" Sketch
Paper, watercolour, 1935

"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Wedding" Sketch
Paper, watercolour, 1935

REYHAN TOPCHUBASHOVA


Reyhan khanim Ibrahim qizi Topchubashova was born on 15 December 1905 in Guba. As a child she demonstrated big interest to music and art. She got her first education in the school for girls opened by Zeynalabdin Taghiyev. Reyhan khanim's love to music inspired her to enter the Fortepiano Department of Conservatoire in 1923. Along with musical education Reyhan khanim also worked as a teacher. Reyhan khanim faced with difficulties in getting education because of her early marriage and birth of her first son Ibrahim, so she had to leave her education in Conservatoire halfway. Later the birth of twin girls Elmira and Zemfira fully attached Reyhan khanim to her family. As a mother she dedicated all her time to her children so she was not able to obtain profession that she loved. Suffering inwardly Reyhan khanim decided to stop these pangs and visited permanent lectures of professional artists, starts to make sketches using colour and sketch ink under the subject of the lectures. 25 years old Reyhan khanim was fascinated by magic of these colours and decided to keep working in art she love so much. In 1933 having passed exams again she entered the 3rd grade of Art School directed by Azim Azimzade. In 1935 she graduated from the Art school and moved forward with more confidence.

Reyhan khanim entirely benefits from Azim Azimzade's style of art. In her works she reflected most truth of the times she lived in.

The method of trustworthiness and realism took superiority in all paintings by Reyhan Topchubashova regardless watercolour or oil colour. According to the genre painting her works may be divided into four types. Genre scenes (thematic sketches), portraits, landscapes and costume sketches should be particularly pointed here. "Wedding" painted in 1935 on canvas with oil colours actually was Reyhan Topchubashova's diploma work, here the influence of mentor to the author is more shown up in the execution of technical methods. She exhibits this work in 1936 for the first time at the exhibition. For the time being the art work "Wedding" is protected within the collection of Azerbaijan National Museum of Art.



"Köhnə Bakının küçəsi"
Kətan, yağlı boya, 1935 (s. 30 - 31)
"Old Baku street"
Canvas, oil, 1935 (s. 30 - 31)



This painting is very interesting due to its originality and vitality as well as ethnographical fullness reflecting our culture and life. Reykhan khanim does not blindly repeat her mentor, she stands out with her feeling of colour, with her individuality in a skill to finish genre scene. In 1935 R. Topchubashova started painting separate sketches in water colour getting prepared to her work "Wedding"; these separate sketches were purposed for characters that would be used by painter on the big canvas. National spirit, affection for traditions, right choice of costumes, gestures, plastique of characters and harmony of colours completely depicts all the personages. Dancing women and girls, the bride with covered head and face dancing in the middle, relatives sitting on the floor and gossiping – each of them is in her own world. Submissive people living in this environment are not aware of anything else happening around the world. They are happy, they are dancing and having a good time. This poor shack is telling not only about this house, it is a reflection of dozens and hundreds of houses, it is a reflection of our society of those times.

The plotline of the next canvas named "The old Baku street" painted by the artist in 1935 on canvas with oil colours is very interesting. In the plot of this work Reykhan khanim creates the common character of old trade shops; mirza writing a letter on peasant's request, a peasant that put his carpet-bag on the ground patiently waiting for his turn, teenagers playing knuckle-bones on the background and even things sold in the shops painted with precision are moments that were derived from our life. Style of costumes and colour solution of the painting from ethnographical point of view emphasizes the life of old Baku. Reykhan khanim is a painter who skilfully creates genre scenes. In this work she represents pre-revolutionary Baku.

In her works Reykhan khanim attempted to touch the subject of freedom for woman. She managed to create a character of strong-willed woman in her work named "Mina khala – first propagandist woman" that became the first painting in Azerbaijan Fine Art performed in social realism style. In "A portrait of saviour of emancipated Azerbaijani woman" the artist somehow created her moral self-portrait. An Azerbaijani girl is standing in front of the board and working with a brush in her hand. During these years Reyhan khanim reflected the history of contemporary time on the canvas, "Women of Ali Bayramov club presenting a



flag to Kirov", "Ceremonial meeting of Baku Council in 1920", "On the tomb of Khanlar" are valuable from historical point of view.

At the same time Reyhan khanim was a talented portrait-painter. Her "Portrait of Gamar Almaszade" (1938-1939) dedicated to ballet dancer that she loved very much is now held in the Azerbaijan National Museum of Art. The reason for preciousness of this work is versatile talent of Reyhan khanim as well as the fact that Gamar Almaszade and she went to school together and this acquaintance turned to friendship. In her painting Reyhan khanim reflected the character of the person she knew,

"Köhnə Bakının küçəsi" Fraqment
Kətan, yağlı boya, 1935
"Old Baku street" Fragment
Canvas, oil, 1935

the inner world of Azerbaijan's first ballet dancer. The contrast of the colours adds static look to the portrait. The portrait is remembered with its distinctness and simple structure.

The portraits of immortal Azerbaijani classics Mirza Alakbar Sabir and Samad Vurgun painted by Reyhan khanim Topchubashova are also considered as valuable works. Feeling of great respect which helped to create a character of Sabir adds lyrical spirit and warmth to the portrait. The ray strained through the window into the room lights up the poet's face. A pen in his hands, the papers on his knees tell us about the love of the poet to creativity. This painting differs with its sincerity and liveliness.

Reyhan Topchubashova tried herself in landscape style with her works "Shahdagh", "The sea" (a view from Mardakan), "A boat", "The Maiden Tower under the moonlight", "Baku in winter", "Sea-piece at night", "Moonset", "Sunrise in mist", "A tent on the seaside" that are particularly

"Köhnə Bakının küçəsi" Fraqment
Kətan, yağlı boya, 1935
"Old Baku street" Fragment
Canvas, oil, 1935





remembered. She is an author of series paintings performed in landscape genre. Each of these works may be considered valuable for its variegation and fullness of love to motherland.

Reyhan khanim's devotion to classic literature and poetry resulted in sequence of paintings dedicated to "Khamsa" by Nizami Ganjavi. These works bring her a great success.

Starting 1938 Reyhan khanim made attempts in creation of costume sketches. On the eve of culture decade held in Moscow she designed national costumes for dancers of song and dancing ensemble who were assigned to perform there. Costumes prepared under her sketches were met by audience with delight. Generally Reyhan khanim is an author of numerous sketches, she is a theatrical designer. Nowadays her sketches are held in the Azerbaijan National Museum of Art, in the Jafar Jabbarly Azerbaijan State Theatre Museum and some other art galleries.



"Köhnə Bakının küçəsi" Fraqment
Kətan, yağlı boya, 1935
"Old Baku street" Fragment
Canvas, oil, 1935

Along with her painting activity Reyhan khanim Topchubashova was a social activist woman with strong organizational abilities. Reyhan khanim attracted young talented people to her artistic work. She visited Neft Dashlari (Oil Rocks) with Maral Rahmazade and Miklashevskaya, and later presented her paintings created there on the first exhibition of female paintings held in 1938 dedicated to 8th March – International Women's Day.

Due to her artistic and organizational skills Reyhan khanim Topchubashova was elected a Deputy Chairman of the Board in Azerbaijan Union of Artists in 1941-1945. In July 10, 1943 Reyhan khanim Topchubashova was the first woman among artists awarded with title of Honoured Art Worker for her contribution to development of Fine Arts.

"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Wedding" Sketch
Paper, watercolour, 1935




In her art works Reyhan khanim applied to the theme of war, too. She is the author of "Surgeon Topchubashov saves soldier's life" and some other paintings of this subject.

At the end of her life Reyhan khanim Topchubashova being struck by serious illness carries out her moral obligation as a mother. After the news about untimely death of her son Ibrahim she hurries not to leave her son alone in the eternal world, as if trying to be his companion on this long way to eternity. 8 days after her son's death in March 5th, 1970 the talented Azerbaijani woman artist Reyhan khanim Topchubashova passes away. However this personality, this talented woman will live forever in the hearts, in the museums where she left her artistic legacy and on the canvas of popular Azerbaijani painters M. Abdullayev and M.Afandiyev.

Khadija Asadova, Baku, 2013

"Köhnə Bakının küçəsi" Fraqment
Kətan, yağlı boya, 1935
"Old Baku street" Fragment
Canvas, oil, 1935





"Gəlin şərf ilə"
"Toy" əsərinə eskiz
Kağız, sulu boya, 1935
"Veiled Bride"
Sketch to "Wedding"
Paper, watercolour, 1935

REYHAN TOPÇUBAŞOVA

(1905 - 1970)

Qısa tərcümeyi-hal



1905-ci ildə - Qubada anadan olmuşdur

1923-cü ildə - Konservatoriyanın fortepiano şöbəsinə daxil olur, lakin təhsilini tamamlamır

1931-1935-ci illərdə - Azərbaycan Rəssamlıq məktəbində təhsil almışdır

1936-cı ildən - Sərgilərdə iştirak etməyə başlayır

1936-cı ildə - Mahnı və rəqs ansamblları üçün geyim eskizləri işləyib

1941-1945-ci illərdə - Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədr müavini vəzifəsində çalışmışdır

1938-ci ildə - Azərbaycan qadın rəssamlarının əsərlərindən ibarət sərgisinin təşəbbüskarı olmuşdur

1943-cü ildə - Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür

1970-ci ildə - Reyhan Topçubaşova Bakıda vəfat etmişdir



Reyhan Topçubaşova
Reyhan Topchubashova

Soldan: oğlu İbrahim və qızları Elmira, Zemfira
From left: her son Ibragim and daughters Elmira and Zemfira

REYHAN TOPCHUBASHOVA

(1905 - 1970)

Short Biography

1905- Was Born in Guba

1923- Entered Piano Faculty of Azerbaijan State Conservatorium, but never completed her study there

1931-1935- Studied in Azerbaijan Art School

1936- Started Participation in the Art Exhibitions

1936- Worked on the sketches for Dancers' Costumes for Songs & Dances Assemble

1938- Was Initiator of the Women Artists' Exhibition

1941-1945- Was Elected a Deputy Chairman Azerbaijan Artists' Union

1943- Was Awarded the Title of Honored Art Figure of Azerbaijan

1970- Died in Baku



Reyhan xanım ailə üzvləri ilə birlikdə istirahətdə
Reyhan khanim and the members of her family during rest time

Reyhan xanım oğlu İbrahimlə birlikdə
Reyhan khanim with her son Ibrahim








İZZƏT SEYİDOVA



İzzət xanım Əlibəy qızı Seyidova 20 noyabr 1910-cu ildə Xarkov şəhərində anadan olmuşdur. Atası Əlibəy Mir Seyfəddin oğlu və anası Olqa Yakovlevna Xarkov universitetinin tibb fakültəsində təhsil almış və elə Xarkovdaca ailə qurmuşdular. Doktor Əlibəy Seyidov həyat yoldaşı ilə Bakıya qayıdanda qızları İzzətin heç bir yaşı belə yox idi. Bu ailə cəmiyyətdəki mövqeyinə görə zəmanəsinin ziyalı təbəqəsinə aid edilirdi. İzzətin babası Mir Seyfəddin vaxtı ilə Zaqafqaziyanın mədəni mərkəzi sayılan Tiflisdə yaşamış, müəllim və tərcüməçi kimi fəaliyyət göstərmişdi. Bakı məktəbində oxuduğu illərdə İzzət rəssam A.Kosiçkinin rəsm studiyasında məşğul olurdu. Aleksandr İvanoviç Kosiçkin Peterburq Rəssamlıq Akademiyasında təhsil almışdı. Bakıda yaşadığı illərdə A.Kosiçkin gənclərin bədii yaradıcılığa olan meyillərini istiqamətləndirmişdi. Bu arada

"Gülnar"
"Vaqif" operası üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1960-1961
"Gulnar"
Costume sketch for opera "Vagif"
Paper, mixed techniques, 1960-1961

İzzətin də artıq yeddinci sinfi bitirdiyini nəzərə alan və qızlarının rəsm çəkmək həvəsini görən valideynləri İzzətin Bakı Rəssamlıq Texnikumunda təhsil almasına icazə verirlər. Burada İzzət təcrübəli müəllimlərdən: A.Kosiçkindən və M.Gerasimovdan dərs alır. 1931-ci ildə İzzət Seyidova Rəssamlıq Texnikumunu bitirdikdən sonra, Xalq Maarif Komissarlığının göndərişi ilə İ.Y.Repin adına Leninqrad Rəssamlıq Akademiyasının teatr şöbəsinə daxil olur (1931-1938-ci illər). Təhsil illəri İzzət üçün heç də asan keçmir. Onu bir gün rəhbərliyə çağırıb valideynlərinin fəhlə olmaması səbəbindən institutdan xaric edildiyini bildirirlər. İzzət ağlayır, onlara ailəsi barədə məlumat verir, lakin təəssüf ki, bu bir nəticə vermir. Elə o gündən İzzət əlacsız qalıb Moskvaya yollanır. Nəhayət, əziyyəti yerdə qalmayan İzzət institutda təhsilini davam etdirmək razılığını alır. İzzət xanıma ali məktəbdə oxuduğu illərdə ixtisas fənni üzrə görkəmli rəssamlar – R.Frents, Y.Lansere, A.Osmyorkin,




"Pioner qız"
Kətan, yağlı boya, 1944
"Pioneer Girl"
Canvas, oil, 1944

"İntermediya"
C.Rossininin "Sevilya bərbəri" operettası üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1950-1951
"Intermedia"
Costume sketch for play "The Barber of Seville" by G.Rossi
Paper, mixed techniques, 1950-1951

M.Babışev və b.dərs vermişlər. İzzət xanım bu insanların zəhmətinə dəyər verir, onların eskizi boyakarlıq əsəri kimi qiymətləndirdiklərini, konstruktiv ünsürlərdən daha çox dekorativliyə önəm verdiklərini xatırlayırdı. İzzət xanımın "Yevgeni Onegin" operasına verdiyi tərtibat onun diplom işi idi. Bu iş yüksk qiymətə layiq görüldü. Digərlərindən seçildi. Hətta "İzvestiya" qəzetində "Gənc rəssam Seyidovanın "Oneginə" verdiyi tərtibat, P.İ.Çaykovskinin fikrinə uyğun olaraq, "lirik səhnələr" kimi həll edilmişdir" mövqeli müsbət yazı da nəşr edilmişdi. İzzət xanımın bu tərtibatda rus təbiətinin poetik mənzərəsini yaratma bacarığı özünü xüsusilə büruzə verir. Dekorlar, arxa planda pərdələrdən lakonik istifadə onun qəlbindən gələn bir duyğudan yaranmışdı. Rəssam-qadın gələcəkdə də bu tərtibat prinsiplərinə, duyğusuna sadiq qaldı. Davamlı yaradıcılıq fəaliyyətinə İzzət Seyidova M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrından başlayır. Və burada çalışdığı 20 il ərzində onlarca opera və balet tamaşalarına bədii quruluş tərtibatı verir. "Sevilya bərbəri" (1938), "Qırmızı lalə" (1940), "Qaratoxmaq qadın" (1941), "Vətən" (1941), "Maskarad" (1945), "Demon" (1949), "Sevil" (1952), "Şah İsmayıl" (1956), "Leyli və Məcnun" (1958), "Koroğlu" (1959), "Qofmanın nağılları" (1962), "Raymonda" kimi opera və tamaşaların uğurunda onun bədii tərtibatının böyük yeri var.

Teatra gəldikdə ona ilk gündən etibar edilir, ilk quruluş verdiyi və rəssamın ən məşhur tamaşalarından biri Rossininin "Sevilya bərbəri" əsəridir. Bu tamaşanın dekorasiya və geyim eskizlərindən üçü hazırda C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində qorunub saxlanır. Bu eskizlər İzzət xanımın səhnə tərtibatına olan yaradıcı münasibətinin bəhrəsi sayıla bilər. İspanyanın mənzərəli təbiəti, orta əsr şəhərini tərənnüm edən rəngli şəkillər operanın nikbin ruhuna tam uyğundur. Onu da xatırladaq ki,





"Professorun yanında"
N.Hikmətin "İki inadkar" pyesinə
dekorasiya eskizi
Kağız, quaş, 1950-ci illər
"At the Proffessor's place"
Sketch to the play decoration of
"Two stubborns" by N.Hikmet
Paper, gouache, 1950s



“Vaqif”
“Vaqif” operası üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1960-1961
“Vagif”
Costume sketch for opera “Vagif”
Paper, mixed techniques, 1960-1961

“Vidadi”
“Vaqif” operası üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1960-1961
“Vidadi”
Costume sketch for opera “Vagif”
Paper, mixed techniques, 1960-1961

“Şairə Mirvarid Dilbazi”
Kətan, yağlı boya, 1945 (s. 50)
“Poetress Mirvarid Dilbazi”
Canvas, oil, 1945 (p. 50)


müharibə illərində ikinci dəfə “Sevilya bərbəri” tamaşası M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında yenə də İzzət xanımın tərtibatı ilə səhnələşdirilmişdir. Bu təcrübə rəssamda klassik opera tamaşalarına tərtibat vermək üçün yol açdı.


Məhz İzzət xanımın istedadından irəli gələrək 1941-ci ilin martında “Qaratoxmaq qadın” operası quruluşa qoyulanda dekorasiya və geyimlərin hazırlanması İzzət xanıma tapşırılmışdı. O nəinki dekorasiya, geyim tərtibatı, hətta qrim sahəsində də öz bacarığını sınadı, onun əməyi sayəsində unudulmaz obrazlar yarandı. Bu tərtibatı rəssam operanın hər səhnəsinə – musiqi, ariya və ariozolara uyğun olan rəngli dekorasiyalarda işləmişdi. İzzət xanım üçün teatr gözəl musiqi, onun ahəngli səslənməsi və işıq, rəng vasitəsilə ecazkar təsir qüvvəsi yaradan səhnədən ibarətdir. Bu möhtəşəm təsiri zənginləşdirən cəhət isə obrazların məzmununa görə verilən geyimlə tamamlanmasıdır. Uzun illər Peterburqda yaşayan İzzət xanım bu şəhərin mənzərələrini ustalıqla səhnəyə gətirə bilmişdi. Rəssam bu tamaşada konstruksiyalara az yer verib, işıq effektini artırır, səhnəni musiqiylə bağlayırdı.

Bu tamaşa da 20 ildən sonra bir daha səhnəyə qoyulduğu zaman onun yenidən səhnə tərtibatının qorunub saxlanılması məqbul hesab edilmişdir. Bu növ peşəkar, orijinal tərtibat 20 il sonra da öz təsirini itirməyərək saxlanılmışdır.

Böyük Vətən müharibəsi illərində teatrda tamaşaya tərtibat vermək heç də asan deyildi. Maddi çətinlik və sıxıntı üzündən teatr tamaşalarına dekorasiya və geyimlərin alınması çətinlik yaradırdı. Bu illər rəssam lakonik və sadə dekorasiyaya üstünlük verirdi. Birpərdəlik “Xalqın qəzəbi”, “Nadejda Svetlova” və “Vətən” operalarına verdiyi tərtibatda İzzət Seyidova dekorasiyalarda cüzi dəyişiklik etməklə cəbhə epizodları haqqında inandırıcı təsəvvürlər








yaradırdı. Bəstəkar İ.Dzerjinskinin lirik səhnələrdən ibarət "Nadejda Svetlova" operasında müharibə dövrünün lirik səhnələri üstünlük təşkil edirdi. Hadisələr Peterburqda baş verir. Bu əsər vasitəsilə tamaşaçılara patriotizm, faşistlərə qəzəb və sevgiyə, məhəbbətə sədaqət hissləri aşılanırdı. İzzət xanım Peterburqa bələd olduğu üçün ona Neva çayı üzərində bədirlənən ayı, qarla örtülmüş Dekabristlər meydanını və tipik qəhrəman evini təsvir etmək heç də çətin deyildi. Bu opera tamaşası üzərində aparılan iş sanki "Vətən" operasına keçmək üçün bir hazırlıq idi. Gənc Azərbaycan bəstəkarlarından Q.Qarayev və C.Hacıyev tərəfindən bəstələnmiş bu əsərdə sovet insanlarının fədakarlıq, azadlıq və istiqlaliyyət naminə apardıqları qəhrəmanlıq mübarizəsi səhnələrində İ.Seyidova fotoxronikaya üstünlük vermişdir. O bu tamaşa üçün beş dekorasiya eskizi və çoxlu sayda kostyum eskizi hazırlamışdı. Bu, İ.Seyidovanın ilk müasir opera üzərində apardığı ciddi iş hesab edilə bilər.

1952-ci ildə İzzət xanım Ənvər Almaszadə ilə birlikdə Fikrət Əmirovun "Sevil" (Cəfər Cabbarlının pyesi və T.Eyyubovun librettosu əsasında) operasına dekorasiya və geyim eskizləri hazırladı. Bu operada

"Maskarad"
M.Lermontovun "Maskarad" tamaşası üçün dekorasiya eskizi
Kağız, qarışıq texnika, 1945
"Masquerade"
Decoration sketch for play "Masquerade" by M.Lermontov
Paper, mixed techniques, 1945



“Qırmızı lalə”
R.Qliyerin “Qırmızı lalə” əsəri üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1943-1944
“The Red Poppy”
Costume sketch for play “The Red Poppy” by R.Gliere
Paper, mixed techniques, 1943-1944

musiqi ilə dekorasiyalar ahəngdarlıq təşkil edirdi. Ağır minor akkordlarla başlayan bu əsər getdikcə sevinc dolu əyləncəli musiqiyə keçir. İkinci aktın və proloqun incə təsvir elementləri Bakının köhnə küçələrini, minarəli məscidlər, başı çadralı qadınlar, dənizin ağır dalğaları, qala divarları bu mühit haqqında bir dolğun təsəvvür yaradır, süjetin emosional məzmununu ilk dəqiqələrdən hiss etməyə böyük imkan verirdi. Quruluşçu rejissor, xalq artisti Mehdi Məmmədov bu tamaşanı “iki həyat, iki zaman haqqında opera” adlandırmışdı. Rəng həlli, təbii ki, bu səhnələri canlandıran ən vacib vasitə idi. İnqilabdan əvvəlki Bakı şəhərinin tutqun görkəmi, onun memarlıq həlli, bir tərəfdə isə meşşanlıq ab-havası, parlayan parisli qadınlar – Dilbər xanım və onun pərəstişkarları. Bu mühiti canlandırmaq, hər qəhrəmanı geyimiylə səciyyələndirmək üçün İzzət xanım hər bir eskiz üzərində ayrı-ayrılıqda çalışmış, hər bir obrazı ümumi məxrəcə gələnədək, neçə-neçə hissələrdə işləmişdir. Bu, rəssamın ciddi münasibətindən, qarşısına qoyduğu məqsədə tam nail olmaqçün fədakarlıqla çalışdığına bir daha gözəl sübutdur.

Müharibədən sonrakı bu illərdə teatr tamaşaları tez-tez hazırlanırdı. Bu illər İzzət Seyidova Fyodor Qusak, Ənvər Almaszadə və sonralar Əyyub Fətəliyevlə birgə gərgin işləyərək yeni şəraitdə, yeni materiallardan istifadə edərək dekorasiyalar və eskizlər hazırlayırdılar. İzzət xanımın Ə.Fətəliyevlə birgə Üzeyir Hacıbəylinin “Koroğlu” operasına verdikləri yeni tərtibat 1959-cu ildə Moskva şəhərində keçirilən Azərbaycan ədəbiyyatı və mədəniyyəti günləri çərçivəsində uğurla nümayiş etdirilmişdi.

İ.Seyidova qısa müddət ərzində rus və Qərbi Avropa operalarına (A.Rubinşteynin “Demon”, B.Smetaninin “Satılmış gəlin”, L.Delibin “Lakme” tamaşalarına) və Azərbaycan bəstəkarlarının operalarına (Üzeyir Hacıbəylinin “Leyli və Məcnun”) geyim eskizlərini hazırlamış və tərtibat


vermişdir. “Şah İsmayıl” (Müslüm Maqomayevin) və “Leyli və Məcnun” kimi klassik operalara verilmiş milli dekorasiya tərtibatı süjetlə tam səsləşir. Eşq mövzusu əsas leytmotiv olduğu səbəbindən burada lirik, romantik, qəhrəmanlıq üslubuna yaxın bədii quruluş, dekorasiyalarda orta əsr təsviri sənətində olan ornamentlərdən istifadə edilmişdi. Tünd qırmızı, bənövşəyi və göy rənglər səhnəyə şuxluq verir, Şərq mühiti bəzən sanki miniatürlərdə çəkilən tərzə yaxınlaşır.


İzzət xanımın boyalardan istifadə etmək bacarığı ilə yanaşı, musiqini duymaq qabiliyyəti də güclü idi. O, kütləvi tamaşalara verdiyi tərtibatı ilə xalqın ruhunu, dövrün, zamanın təsəvvürünü yaratmaq, qəhrəmanı doğru səciyyələndirmək bacarığıyla seçilirdi. İzzət xanım üçün dekorasiyada istifadə etdiyi rəng üç məzmunla səciyyələnirdi: tamaşanın ruhu, hadisələrin baş verdiyi məkan və tarixi baxımdan hadisələrin cərəyan etdiyi dövr. Şərq mənzərəsi öz poetik təmtərağı, milli arxitekturası, müharibə mövzusu quruluşundakı sərt ruhu, əcnəbi mövzusunda qoyulan tamaşaların fərqli xarakteri, qəhrəmanların taleyi, faciəsi-uğuru və siyasi cərəyanlarıyla seçilirdi. Bu müxtəlifliyin içində baş verənlərə uyğun dekorasiya, qəhrəmanlara görə geyim seçilməsi böyük peşəkarlıqla yanaşı, eyni zamanda tarix və etnoqrafiya ilə bağlı yetərli bilik, məlumatın olmasını da rəssamdan tələb edirdi. İzzət xanım bədii quruluş verdiyi tamaşalara emosionallıq, ifadəlilik, poetiklik, yüksək bədii keyfiyyət gətirmişdi. Təbii ki, Azərbaycan teatrında İzzət xanımdan da öncə tərtibatçı rəssamlar fəaliyyət göstərmişdir və heç təsadüfü deyil ki, teatr-dekorasiyasının professional inkişafında hər zaman Əzim Əzimzadə, Rüstəm Mustafayev, İsmayıl Axundov, S.Yefimenko və N.Fətullayevin adları çəkilirdi. Lakin İzzət Seyidova öz fərdi qabiliyyəti ilə teatr dekorasiyası tarixində bir başqa, daha yeni və parlaq iz buraxmışdı.

“Vaqif” tamaşasında İzzət xanım Seyidovanın tarixi sima olan şair Molla Pənah Vaqifə hazırladığı



“Nina”
M.Lermontovun “Maskarad” tamaşası üçün geyim eskizi
Kağız, qarışıq texnika, 1945
“Nina”
Decoration sketch for play “Masquerade” by M.Lermontov
Paper, mixed techniques, 1945





geyim dəstindəki uzun əba sanki öz biçimi, rəngi ilə qəhrəmanına tabe olurdu. Onun xəyalpərvər ruhunu, mərd görkəmini, yenilməz iradəsini daha qabarıq gözə çarpdırırdı. Milli koloritə verdiyi önəmi biz İzzət xanımın "Fətəli xan" və "Doğma xalqa" kinofilmlərinə verdiyi tərtibatda da izləyə bilərik.

İzzət xanım Əlibəy qızı Seyidova teatır rəssamı olan ilk azərbaycanlı qadındır. O, 1943-cü ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Lakin İzzət xanım Seyidova yaradıcılığında dəzgah boyakarlığı sahəsində portret janrına da yer ayırmışdı. Onun tanınmış portret əsərlərindən yağlı boya ilə çəkdiyi və hazırda onlardan bəzilərinin Azərbaycan Milli İncəsənət Muzeyində saxlanıldığı "Qadın portreti", "Pioner qız" (1944), "Şairə Mirvarid Dilbazinin portreti" (1945), "Aktyor Sidqi Ruhullanın portreti" və həyat yoldaşına həsr etdiyi "Ərimin portreti" adlı əsərləri orijinallığı, təbiiliyi ilə yaddaqalandır.

Çoxları İzzət xanım Seyidovanın təsviri sənətə olan özəl münasibətindən xəbərsiz idilər. Lakin 1940-cı ildə Moskva şəhərindəki yazıçılar klubunda təşkil edilən sərgidə nümayiş olunan "Pioner qız" əsərini görəndən sonra tanınmış rəssam Sergey Gerasimov "Pravda" qəzetində belə yazmışdı: "İzzət Seyidova sərgidə liderlər sırasındadır".

İzzət xanım Seyidova pedaqoji fəaliyyətə önəm verirdi. O, uzun illər boyu Bakı Rəssamlıq Məktəbində "dekorasiya kompozisiyası" fənnindən dərs deyirdi. Onun tələbələrindən Kamil Nəcəfzadəni, Tələt Şıxəliyevi, Asəf Cəfərovu və b.göstərmək olar.

Dolğun yaradıcılıq bioqrafiyasına malik İzzət xanım Seyidova 30 noyabr 1973-cü ildə həyatdan köçmüşdür. Lakin onun dünyasını dəyişməsi heç də unudulması demək deyildir. Çünki o da ölümündən sonra yaşayanlardan, öz haqqı ilə əbədiyyəti qazananlardandır. Yaradıcılığı, əməlləri, neçə-neçə qəhrəmana əbədiyyət qazandırdığı səhnə və geyim eskizləri, özündən sonra qoyub getdiyi bədii irsi ilə hələ çox nəsillərə nümunədir.

Xədicə Əsədova, Bakı, 2013

"Pəncərə"
N.Hikmətin "İki inadkar" pyesinə
dekorasiya eskizi
Kağız, quaş, 1950-ci illər
"Window"
Sketch to the play decoration of
"Two stubborns" by N.Hikmet
Paper, gouache, 1950s




"Həyat yoldaşının portreti"
Kətan, yağlı boya
"Husband's portrait"
Canvar, oil

IZZAT SEYIDOVA

Izzat khanim Seyidova was born in Kharkov on November 20th, 1910. Her father Alibey Mir Seyfaddin oglu and her mother Olga Yakovlevna studied in the medical department of Kharkov University and got married there in Kharkov. When Doctor Alibey Seyidov moved with his wife to Baku their daughter Izzat did not even turn one. Due to their status in society this family referred to intellectual class of those times. Izzat's grand-father Mir Seyfaddin lived in Tiflis – the cultural centre of Transcaucasia of that time where he was engaged with teaching and translation activities. During her school years in Baku Izzat studied in art studio of A.Kosichkin. Alexander Ivanovich Kosichkin graduated from Petersburg Academy of Art. During his life in Baku Kosichkin mentored young people in art. When Izzat graduated from 7th grade, her parents noticed her interest to art and allowed their daughter to enter Baku School of Art. Here Izzat learnt from such experienced teachers as A.Kosichkin and M.Gerasimov. Having graduated from the School of Art in 1931 under the direction of Public Education Commissariat Izzat entered Theatre department of I.Y. Repin Leningrad Academy of Art (1931-1938). The years of education did not pass for Izzat easily. One day she was called to director's office and notified that she was excluded from the institute due to the reason that her parents were not workers. Izzat cried, told them about her family but did not get any result. Starting that day Izzat with no way out had to go to Moscow. Finally after her attempts Izzat succeeded in getting approval to continue her education in the institute. During her study years in the institute Izzat khanim was guided by such remarkable artists as R.Frents, Y.Lansere, A.Osmyorkin, M.Babyshev, etc. Izzat khanim always valued contribution of these persons, she remembered that they accepted a sketch as work of art and they distinguished ornamentality among constructive elements most of all. For her diploma work Izzat khanim was assigned to design opera "Eugene Onegin". This work was highly assessed. It was selected among the rest. Moreover the newspaper "Izvestiya" published a positive article saying: "The design of "Onegin" by young artist Seyidova was solved in line with P.I.Chaykovski's idea of "lyric scenes".

Izzat khanim's skill to create poetic landscape of Russian nature is particularly specified in this design. Decorations, laconic usage of the background were created by the sense coming from her heart. The woman-painter also kept to this design approach and her sense in future. Izzat Seyidova started her continuous artistic activity in the M.F.Akhundov Azerbaijan State Opera and Ballet Theatre. And here within 20 years she created decorative appearance for dozens of plays. Her stage design of such operas and plays as "The Barber of Seville" (1938), "The Red Poppy" (1940), "Queen of Spades" (1941), "The Motherland" (1941), "Masquerade" (1945), "Demon" (1949), "Sevil" (1952),



"Qadın portreti"
Kətan, yağlı boya
"Woman's portrait"
Canvas, oil

"Shah Ismayil" (1956), "Leyli and Majnun"(1958), "Koroghlu" (1959), "The Tales of Hoffmann"(1962), "Raymonda" also was a significant part of their success.

From her first day in the theatre she was accepted as a credible artist, her first design and most popular work was "The Barber of Seville" by Rossini. Three of this play's decoration sketches and costume sketches are held nowadays in the Jafar Jabbarly Azerbaijan State Theatre Museum. These sketches can be considered as a result of Izzat khanim's artistic attitude to stage design. Scenic nature of Spain, colourful pictures reflecting the city of Middle Ages entirely comply with cheerful spirit of this opera. It should be noted that during the World War II "The Barber of Seville" was staged in M.F.Akhundov Azerbaijan State Opera and Ballet Theatre for second time and again under Izzat khanim's design. This experience paved a way for the artist to design classical opera future.

